# QAFQAZ DİYARININ XƏRİTƏSİ

TİFLİS, 1847-ci il

(QAFQAZIN CƏNUB HİSSƏSİNİN FRAQMENTİ)

BAKI-2023

“Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır. Göyçə, Zəngəzur mahallarıdır. Vaxt gələcək biz orada da yaşayacağıq. Mən buna inanıram, buna əminəm. Buna nail olmaq üçün hər birimiz öz səylərimizi qoymalıyıq, hər birimiz öz işimizlə o müqəddəs günü yaxınlaşdırmalıyıq”.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının, Qərbi Azərbaycan İcmasının birgə nəşri**

**"Qafqaz diyarının xəritəsi". Tiflis, 1847-ci il (Qafqazın cənub hissəsinin fraqmenti)**

**Layihənin rəhbərləri:**

| | |
|---|---|
| **Rəvan Həsənov** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru |
| **Əziz Ələkbərli** | Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin üzvü |
| **Nazim İsmayılov** | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geodeziya və Kartoqrafiya Agentliyinin İdarə Heyətinin sədri |

**Mətnin müəllifləri:**

| | |
|---|---|
| İbrahim Bayramov | Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, filologiya üzrə fəlsəfə doktoru, professor |
| **Nazim Mustafa** | Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru |

**Layihəyə məsul**:

| | |
|---|---|
| **Araz Qurbanov** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təhlilçisi |
| **Qalib Qasımov** | Qərbi Azərbaycan İcması aparatının rəhbəri |

**Xəritənin tərtibçiləri:**

| | |
|---|---|
| **Müqabil Bayramov** | Azərbaycan Coğrafiya Cəmiyyətinin vətse-prezidenti, qrup rəhbəri |

**Kartoqraflar:**
**Cəmilə Agayeva**
**İradə Quliyeva**
**Vəfa Babayeva**

ISBN 978-9952-8461-5-7

Xəritələr təkcə coğrafiyaşünaslar, tarixçilər üçün deyil, siysətçilər üçün də qiymətli informasiya mənbəyidir. Qədim və müasir dövlətləri, onların ərazilərini, inzibati vahidlərini, irili-xırdalı yaşayış məntəqələrini, tarixi tikililərini, çayları, gölləri, dağları, düzənlikləri və s. özündə tam gerçəkliyi ilə əks etdirməklə yanaşı, onların adlarını, burada məskunlaşan xalqların kimliyini, yaşam tərzini, hətta mənəvi dəyərlərini də gələcək nəsillərə çatdırır. Yaşı yüz il, beş yüz il, min il olan xəritələri öyrənməklə və onları müasirləri ilə müqayisə etməklə, ötən dövrlərdə hər hansı bir ərazinin fiziki-coğrafi, mədəni, etnik xüsusiyyətləri, coğrafi və siyasi sərhədləri barədə məlumat əldə etmək, toponimlərin etnik mənsubiyyətini araşdırmaq, burada yaşamış əhalinin etnik tərkibini müəyyənləşdirmək mümkündür. Belə olan təqdirdə xəritələrdəki coğrafi adlar, eyni zamanda, tarixi yaddaşın bərpasında, saxtakarlığın və mənimsəmələrin qarşısının alınmasında, ifşasında xüsusi əhəmiyyət kəsb edir.



Hər hansı bir etno-mədəni arealda toponimlər qatının formalaşması uzun sürən prosesdir. Ərazi-yer adlarını orada yaşayan xalqlar formalaşdırır və zaman keçdikcə tarixi mənbələrdə öz yerini alır. Müəyyən ərazidəki **oykonimlər** *(yaşayış məntəqələri, şəhərlər, kəndlər, yaylaqlar, qışlaqlar və s.)*, **antrotoponimlər** (*şəxs adlarından törəmiş coğrafi adlar)*, **hidronimlər** *(su hövzələrinin adları)*, **oronimlər** *(dağlar, dərələr, təpələr, aşırımlar və s.)*, **fitotoponimlər** *(bitki adlarından yaranan toponimlər)*, **zootoponimlər** *(heyvan adları ilə bağlı coğrafi obyektlər)* və s. orada yaşayan xalqların tarixini, coğrafiyasını, mədəniyyətini və etnoqrafiyasını özündə əks etdirir. Digər tərəfdən, toponimlər tarixi hadisələrin şahidləri kimi yaddaşları təzələyərək, həmin ərazidə cərəyan etmiş prosesləri bir daha xatırladır.

Cənubi Qafqazda qədim türklərə – saka-skiflərə, kimmerlərə, suvarlara, hunlara, xəzərlərə, siraklara, bulqarlara, barsillərə, avarlara, oğuz və qıpçaq boylarına məxsus toponimlərin yaranmasından min illərlə zaman keçir. Azərbaycan, Gürcüstan və Qərbi Azərbaycan – indiki Ermənistan ərazisində minlərlə toponim məhz tarixin qədim qatlarında formalaşmışdır. Qərbi Azərbaycan ərazisində, həmçinin tarixən cinli, sabunçu, baharlı, bayandur, qacar, peçeneq, kəngər, qazax, əfşar, xalac, şamlı, ustaclı, türkman, ayrım, qarapapaq, qaramanlı, muğanlı və b. türk tayfaları yaşamışlar. Burada oğuzun 24 boyunun hər biri ilə bağlı yer adları da kifayət qədərdir.

Son iki yüz il ərzində Çar Rusiyası dövründə və ondan sonrakı dövrlərdə tərtib edilən xəritələr Cənubi Qafqazın etnik mənzərəsini, orada gedən demoqrafik prosesləri izləməyə imkan verir. XVIII əsrin ortalarında Azərbaycanın xanlıqlara və sultanlıqlara parçalanması həmin əraziləri işğal etməyə çalışan Rusiya imperiyasının əlinə çox əlverişli fürsət vermişdi. Çar Rusiyası Cənubi Qafqazdakı hərbi-siyasi, sosial-demoqrafik və coğrafi vəziyyəti öyrənərək məxfi raportlar hazırlamaq məqsədilə 1783-cü ildə polkovnik Stepan Burnaşevi Kartli-Kaxetiya çarı II İraklinin sarayına göndərmişdi. O, 1786-cı ildə “İrandakı Azərbaycan vilayətlərinin təsviri və onların siyasi vəziyyətləri” haqqında məxfi raportunda Azərbaycan xanlıqlarının, o cümlədən də İrəvan xanlığının coğrafi mövqeyi, əhalisinin sayı, milli tərkibi, qonşu xanlıqlar və Osmanlı paşalıqları ilə sərhədləri, hərbi kontingenti haqqında ətraflı məlumat vermişdi. Bu məlumatlar XIX əsrin əvvəlində Rusiyanın Cənubi Qafqazı işğalı dövründə xüsusi əhəmiyyət kəsb etmişdi. Nəticədə Rusiya imperiyası işğal əməliyyatlarının uğuru üçün öncədən hərbi-topoqrafik xəritələr hazırlamışdı...

XVIII əsrin ortalarında yaranan İrəvan xanlığı Azərbaycanın Ağrı dağı ilə Alagöz dağı arasında qalan, Araz çayının hər iki sahilində yerləşən ərazini əhatə etmişdi. İrəvan xanlığı şimaldan Pəmbək əyaləti, Şəmşəddil, Qazax sultanlıqları və Gəncə xanlığı, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənubdan Xoy və Maku xanlıqları və Bayazid paşalığı ilə, qərbdən Qars paşalığı, şimali-qərbdən Şörəyel sultanlığı ilə həmsərhəd idi. İrəvan xanlığının ərazisi təqribən 23,8 min kv. km olmuşdur. İrəvan xanlığı Rusiya qoşunları tərəfindən 1827-ci il oktyabrın 1-də işğal edilmişdi. İşğal ərəfəsində xanlığın inzibati-ərazi bölgüsü 15 mahaldan və xanlıqdan yarıasılı Şörəyel sultanlığından ibarət idi. Mahallardan yalnız ikisi – Dərəkənd-Parçenis və Sürməli mahalları Araz çayının sağ sahilində yerləşirdi. Aşağıdakı mahallar İrəvan xanlığının tərkibində olmuşdur:



**1. Qırxbulaq**
**2. Zəngibasar**
**3. Gərnibasar**
**4. Vedibasar**
**5. Karbibasar**
**6. Sərdarabad**
**7. Talın**
**8. Saatlı**
**9. Abaran**
**10. Seyidli-Ağsaklı**
**11. Dərəçiçək**
**12. Göycə**
**13. Şərur**
**14. Dərəkənd-Parçenis**
**15. Sürməli**

Rusiya ilə Qacarlar İranı arasında 1828-ci il fevralın 10-da imzalanan Türkmənçay müqaviləsinə əsasən İrəvan və Naxçıvan xanlıqları Rusiyanın tabeçiliyinə keçdi. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqları ərazisində süni surətdə "Erməni vilayəti" yaradıldı. Türkmənçay və Ədirnə *(1829)* müqavilələrinə görə Cənubi Azərbaycan xanlıqlarının və Osmanlı imperiyasının ərazisindən 120 mindən artıq erməni köçürülüb gətirilərək Cənubi Qafqazda məskunlaşdırıldı. İrəvan xanlığının 15 mahalı yeni yaradılan İrəvan əyalətinin tərkibinə daxil edildi. Həmin vaxt "Erməni vilayəti"nin ərazisinə daxil edilən 1111 kənddən yalnız 62-də ermənilər yaşayırdı ki, onlardan da yalnız 14-nün adı erməni mənşəli idi...

İrəvan qalasının alınmasındakı xidmətlərinə görə fəxri "Qraf Erivanski" tituluna layiq görülən general İvan Paskeviçin dəvəti əsasında Sankt-Peterburqdan İrəvana göndərilən və yeni inzibati-ərazi "Erməni vilayəti"ndə 1829–1832-ci illərdə kameral siyahıyaalma keçirən İvan Şopenin verdiyi məlumata görə, İrəvan əyalətində 831 kənd qeydə alınmışdı ki, həmin kəndlərdən 310-u müharibə nəticəsində boşalmışdı. İ.Şopenin verdiyi məlumatların təhlilindən aydın olur ki, Türkmənçay *(1828)* müqaviləsinə əsasən İrandan köçürülən ermənilər İrəvan xanlığının 119 kəndində, Ədirnə *(1829)* müqaviləsinə görə Türkiyədən köçürülən ermənilər isə xanlığın 128 kəndində yerləşdirilmişdilər. Köçürülmələr nəticəsində İrəvan xanlığının ərazisində azərbaycanlılarla ermənilərin qarışıq yaşadıqları 50 kənd meydana gəlmişdi.



1840-cı ildə "Erməni vilayəti" ləğv edilmiş, ərazisi Aleksandropol *(Gümrü),* İrəvan və Naxçıvan qəzaları şəklində Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edilmişdi. Aleksandropol

qəzasına Şörəyel və Pəmbək sahələri, İrəvan qəzasına isə Sərdarabad, Sürməli, Zəngibasar, Göyçə, Şərur, Dərələyəz sahələri, Naxçıvan qəzasına Naxçıvan, Ordubad və Meğri sahələri daxil edilmişdi. 1849-cu ildə İrəvan, Aleksandropol, Novo-Bəyazid, Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzaları daxil olmaqla İrəvan quberniyası yaradılmışdı. 1875-ci ildə əlavə olaraq Eçmiədzin və Sürməli qəzaları yaradılmış, Ordubad qəzası Naxçıvan qəzasının tərkibinə daxil edilmişdi.

XIX əsrdə Qafqazda topoqrafik xəritələşdirmə işləri xüsusi intensivliklə aparılmışdı. **Çar Rusiyasının Qafqaz Korpusunun Tiflisdəki Baş Qərargahında 1847-ci ildə hazırlanan Qafqaz Ölkəsinin xəritəsi** indiki Ermənistan ərazisinin toponimlərinin araşdırılması üçün xüsusi əhəmiyyət kəsb edir. Həm 1847-ci il xəritəsində, həm də Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeçiliyindəki "Geodeziya və Kartoqrafiya" MMC tərəfindən təkrar nəşr olunan Qafqazın 1903-cü il hərbi-topoqrafik xəritəsinin indiki Ermənistan ərazisini əhatə edən hissəsində azərbaycanlılara məxsus toponimlər məhz onların həmin ərazinin əzəli sakinləri olmasını sübut edir. Xəritələrdən görünür ki, İndiki Ermənistan ərazisində erməni dilində toponimlər cüzidir. Onların əsas hissəsi XIX əsrin əvvəllərində ermənilərin kütləvi surətdə buraya köçürülməsindən sonra meydana çıxmışdı.



Qafqazın 1847-ci il hərbi topoqrafik xəritəsində indiki Ermənistan ərazisi Aleksandropol qəzasının Şörəyel və Pəmbək sahələrini, Qars paşalığının Zərşad sancağının Ağbaba nahiyəsinin bir qismini, İrəvan qəzasının Sərdarabad, Zəngibasar, Göyçə, Dərələyəz sahələrini, Şərur sahəsinin

Vedibasar hissəsini, Naxçıvan qəzasının Meğri sahəsini, Tiflis quberniyasının Borçalı və Qazax sahələrinin bir hissəsini, Kaspi vilayətinin Zəngəzur sahəsininin bir hissəsini və Yelizavetpol qəzasının Şəmşəddil sahəsinin bir hissəsini əhatə edir.

1847-ci il inzibati bölgüsünə əsasən Sovet Ermənistanının ərazisinə uyğun gələn rayonlar bunlardır. Aleksandropol qəzasının Şörəyel sahəsi Sovet Ermənistanı dövründə **Amasiya, Qukasyan** *(Qızılqoç)*, **Axuryan** *(Düzkənd)*, **Artik, və Ani** *(Ağin)* rayonlarının, Pəmbək sahəsi isə **Quqark** *(Böyük Qarakilsə)*, **Spitak** *(Hamamlı)*, **Kalinino** *(Vorontsovka)*, **Stepanavan** *(Cəlaloğlu)* rayonlarının ərazisinə uyğun gəlirdi. İrəvan qəzasının Sərdarabad sahəsi **Araqats** *(Ələyəz)*, **Talin, Abaran, Hoktemberyan** *(Qurduqulu)* və Eçmiədzin rayonıarının ərazisinə uyğyun gəlirdi. Zəngibasar sahəsi **Masis** *(Zəngibasar)*, **Abovyan** *(Ellər)*, **Artaşat** *(Qəmərli)*, **Hrazdan** *(Axta)* rayonlarının ərazisinə uyğun gəlirdi. Şərur sahəsinin şimal-qərbi **Ararat** *(Vedi)* rayonunun ərazisinə uyğun gəlirdi. Göyçə sahəsinin ərazisinə **Vardenis** *(Basarkeçər)*, **Krasnoselsk** *(Çəmbərək)*, **Sevan** *(Yelenovka)*, **Martuni** *(Qaranlıq)*, **Kamo** *(Kəvər)* rayonlarının ərazisi uyğun gəlirdi. Tiflis quberniyasının Borçalı qəzasının, Yelizavetpol qəzasının Qazax və Şəmşəddil sahəsinin müəyyən əraziləri də sovet hakimiyyətinin ilk illərində Sovet Ermənistanına birləşdirilmişdir. Dərələyəz sahəsi **Yeğeqnadzor** *(Keşişkənd)* və Əzizbəyov, Vayk *(Paşalı)*, rayonlarının ərazisini əhatə edirdi. Naxçıvan qəzasının **Meğri** sahəsi isə əsasən Sovet Ermənistanının Meğri və Qafan rayonlarının ərazisinə uyğun gəlir.

İndiki Ermənistan ərazisində ilk addəyişmə əməliyyatı Çar Rusiyası dövründə həyata keçrilmişdir. İrəvan şəhəri "Erivan" adını almış, Çar I Nikolayın 1837-ci ildə Gümrüyə gəlməsindən sonra bu şəhərin adı dəyişdirilərək, çarın arvadı Aleksandra Feodorovnanın şərəfinə "Aleksandropol" adlandırılmışdı. 1842-ci ildə Dərəçiçək mahalının Böyük Ördəkli kəndində malakanlar məskunlaşdırılmış və toponim çar I Pavelin qızı Yelenanın şərəfinə "Yelenovka"ya çevrilmişdi. 1847-ci ildə Dərəçiçək kəndi Konstantinovka adlandırılmışdır. 1847-ci il xəritəsində indiki Ermənistan ərazisinə XIX əsrin birinci yarısında Rusiyadan köçürülüb gətirilən rusların məskunlaşırıldıqları Nikitino, Qolovino, Voronsovka, Privolnoye, Saratovka, Rus Gərgəri, Yelenovka, Fontan, Kislıe Vodı, Voskresenkoe, Konstantinovskoe yaşayış məntəqələrinin adları da öz əksini tapmışdı.



Xəritənin Qərbi Azərbaycan – indiki Ermənistan ərazisini əhatə edən hissəsindəki yaşayış məntəqələrinin, dağların, çayların, göllərin, kurqanların siyahısı ayrıca tərtib edilmişdi. Yaşayış məntəqələrinin siyahısında hansı kəndlərin ləğv edildiyi, hansının adlarının dəyişdirilərək hazırda necə adlandırıldığı qeyd edilmişdi. Burada aşağıda təqdim edilən siyahılardan göründüyü kimi, azərbaycanlıların vaxtilə yaşadıqları elə məntəqələr var ki, onların adları bir neçə dəfə dəyişdirilmişdir. Təqdim edilən siyahılardan görünür ki, 1847-ci il xəritəsində əksini tapan azərbaycanlı yaşayış məntəqələrindən 295-i sonrakı dövrlərdə yer üzündən silinmişdir. Bu xəritədə Qərbi Azərbaycan ərazisini əhatə edən ərazidə toponimlərin bir hissəsi məqsədli şəkildə

təhrifə uğramış, rus dilinin orfoqrafiyasına uyğulaşdırılmışdı. Bu da topoqrafın Azərbaycan dilini bilməməsi ilə bağlıdır.

1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan bir gün sonra sonra Azərbaycan K(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsi qərara alınmışdı. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR-nin tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistan SSR-ə verilmişdir. Ermənistan Xalq Kormissarları Soveti 20 iyul 1921-ci ildə Ermənistanın 8 qəza, 33 nahiyədən ibarət inzibati-ərazi bölgüsünü təsdiq etmişdir. Bir qədər sonra avqustun 31-də 9-cu qəza – Zəngəzur qəzası yaradılmışdır. Azərbaycan isə öz növbəsində Zəngəzurun qərb hissəsini – Ermənistan ərazisində yaradılan Gorus, Sisian, Qafan rayonlarını və sonradan yaradılan Meğri rayonunun bir hissəsini öz inzibati-ərazi bölgüsündən çıxarmışdır. Beləliklə, Qərbi Zəngəzurun ermənilərin əlinə keçməsi prosesi başa çatmışdır. Bununla da Naxçıvan Azərbycanın əsas hissəsindən və Türkiyə isə türk dünyasından ayrı salınmışdır.



1948–1953-cü illərdə Ermənistanın 24 rayonundan (*200-dən artıq yaşayış məntəqəsindən)* və İrəvan şəhərindən təqribən 100 min nəfər azərbaycanlı öz tarixi-etnik torpaqlarından deportasiya edilmişdir. 1847-ci il xəritəsində öz əksini tapan yaşayış məntəqələrinin bir qismi məhz həmin vaxtdan etibarən boşaldılmış və bu günədək xaraba qalmışdır.1988–1989-cu illərdə isə azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məntəqəsinindən 250

min azərbaycanlı deportasiya edildi. Sonuncu azərbaycanlı kəndi Nüvədi 1991-ci il avqustun 8-də boşaldıldı. Nəticədə tarixi Azərbaycan ərazisi monoetnik erməni dövlətinə çevrildi. Sovet hakimiyyəti illərində indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus 521 yaşayış məntəqəsinin adları erməniçələşdirilmişdir. Ümumiyyətlə, son dövrədək Ermənistanda 700-dən artıq türkmənşəli inzibati-ərazi vahidinin adları dəyişdirilmişdir.

Ermənistan ərazisində hidronimlərin və oronimlərin adlarının dəyişdirilməsi prosesi sovet hakimiyyəti illərində mütəmadi olaraq davam etdirilmişdir. Məsələn, **Göycə gölünü "Sevan", Zəngi çayını "Hrazdan", Arpaçayı "Axuryan", "Akori", Bazarçayı "Vorotan", Alagöz (Ələyəz) dağını "Araqats", Ağbaba dağını "Medz Yeğnasar", Ağlağan dağını "Urasar", Dərəçiçək yaylağını "Tsaxkadzor", İşıxlı dağını "İşxanasar", Şahdağ dağını "Kaputan", Leyli dağını "Açkasar", Ağlağan dağını "Yeğnasar"** və s. adlandırmışlar.



1947-ci il xəritəsində qeydə adığımız yaşayış məntəqələrinin siyahısından görünür ki, indiki Ermənistan ərazisində azərbaycanlılara məxsus yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi prosesi əsasən başa çatdırılmışdı. Adları hələlik siyasi motivlərə əsasən bilərəkdən dəyişdirilməyən yalnız bir neçə yaşayış məntəqəsi saxlanılmışdı. Məsələn, **Bayandur, Bayburd, Nizami, Avşar, Hallavar, Şamlıq** və s.

Ermənilər tarixi saxtalaşdırdıqları kimi, tarixi xəritələri də saxtalaşdırır, mövcud türkmənşəli toponimlər *(oykonimlər, hidronimlər, oronimlər)* erməni adları ilə əvəz edilir. Ermənilərin xəritə

saxtakarlığının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 aprel 2012-ci il tarixində imzaladığı sərəncama əsasən Cənubi Qafqazın 1903-cü il hərbi-topoqrafik xəritəsi yenidən çap edilmişdir.

İndiki Ermənistanın 1847-ci il xəritəsinə uyğun əhatə etdiyi inzibati-ərazi bölgüsü aşağdakı kimidir: 1988-ci ildə azərbaycanlıların sonuncu deportasiyasınadək Sovet Ermənistanında 37 inzibati rayon mövcud olmuşdur. 7 noyabr 1995-ci ildə Ermənistan Respublikasının inzibati-ərazi bölgüsü haqqında yeni qanun qəbul edilmişdir. Ermənistanın yeni inzibati-ərazi bölgüsünə əsasən həmin vaxtadək mövcud olan rayonlar üzrə bölgü ləğv edilmiş, əvəzində 11 vilayət *(marz)* yaradılmışdır. Şirak vilayətinə keçmiş Amasiya (Ağbaba), Qukasyan (Qızılqoç), Axuryan (Düzkənd), Ani (Ağin) və Artik rayonları, Lori vilayətinə keçmiş Kalinino, Stepanavan (Cəlaloğlu), Tumanyan (Allahverdi), Spitak (Hamamlı) və Quqark (Böyük Qarakilsə) rayonları, Tavuş vilayətinə keçmiş Noyemberyan, İcevan (Karvansara) və Tavuş (Şəmşəddin) rayonları, Araqadzon vilayətinə keçmiş Talin (Talın), Aparan, Araqats (Ələyəz), Aştarak (Əştərək) rayonları, Kotayk vilayətinə keçmiş Hrazdan (Axta), Kotayk (Abovyan – Ellər), Nairi rayonları, Geğarkunuk vilayətinə keçmiş Krasnoselsk, Vardenis (Basarkeçər), Martuni (Qaranlıq), Kamo (Kəvər) və Sevan rayonları, Armavir vilayətinə keçmiş Bağramyan, Hoktemberyan (Sərdarabad) və Eçmiədzin (Vağarşabad) rayonları, Ararat vilayətinə keçmiş Masis (Zəngibasar), Artaşat (Qəmərli) və Ararat (Vedi) rayonları, Vayotsdzor vilayətinə keçmiş Vayk (Əzizbəyov) və Yeğeqnadzor –(Keşişkənd-Mikoyan) rayonları, Sünik vilayətinə keçmiş Meğri, Sisian, Qafan və Gorus rayonları daxil edilmişdir. İrəvan şəhərinə də ayrıca vilayət statusu verilmişdir.

Prezident İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə demişdir: **“Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin”.**



Qafqazın 1847-ci il və 1903-cü il hərbi-topoqrafik xəritələri əsasında Qərbi Azərbaycan toponimlərinin əlifba göstəricisinin hazırlanması olduqca vacib məsələdir. Bu gün Ermənistan Respublikası adlanan dövlətin ərazisi tarixi Azərbaycan torpağıdır. Bunun bariz sübutu isə həmin ərazinin xəritələrdə əks etdirilən toponimlərdir. İstifadəçilərə təqdim edilən Qafqazın 1847-ci il xəritəsinin indiki Ermənistan ərazisini əhatə edən hissəsinin çap edilməsi erməni saxtakarlığına qarşı növbəti əyani cavabdır.

## 1847-ci ilin topoqrafik xəritəsində Qərbi Azərbaycanda (indiki Ermənistanda) azərbaycanlıların yaşadıqları məntəqələr

*(mötərizədə toponimlərin dəyişdirilmiş adları və ya yaşayış məntəqəsinin ləğv edilməsi göstərilib)*

## Aleksandropol qəzası üzrə Şörəyel sahəsindəki yaşayış məntəqələri:

**Ağin** (Ani)
**Ağkilsə** (Kraşen)
**Arıxvəli** (Lernut)
**Armudlu** (Tufaşen)
**Ərtik** (Artik)
**Aşağı Qanlıca** (Vağramaberd),
**Başkənd** (Saralanc)
**Bayandur**
**Boğazkəsən** (Dzorakap)
**Bostançı Xaraba** (ləğv edilib)
**Bozdoğan** (Sarakap)
**Böyük Keyti** (Keti)
**Böyük Kəpənəkçi** (Musaelyan)
**Cacur**
**Calovxan** (Beniamin)
**Çıraxlı** (Crarat)
**Daharlı/Taqarlı** (Qetk)
**Daşqala** (Karaberd)
**Dərbənd** (Karmrakar)
**Dirəklər** (Karnut)
**Dovşanqışlaq** (Şirakavan)
**Düzkənd** (Axuryan)
**Gözəldərə** (Gexadir)
**Gürcüyolu** (Torosgyuğ)
**Hacınəzərqulu** (ləğv edilib)
**Horom** (Xorum)
**Xutor** (ləğv edilib)
**İlxıyabı** (Ayqebaç)
**İlli Qarakilsə** (Hoğmik)
**İmirxanlı** (Saratak)
**Kəfkirli** (ləğv edilib)
**Kiçik Arıxvəli** (Pokr Mantaş)
**Kiçik Kəpənəkçi** (Hovit)
**Kiçik Keyti** (ləğv edilib)
**Qacarabad** (İsahakyan)
**Qalalı** (Noraber)
**Qapılı** (Qusanagyug)

**Qarakilsə** (Hartavan)
**Qaraqştağ** (ləğv edilib)
**Qazançı** (Meğraşen)
**Qıpçaq** (Hariç)
**Qırxdəyirman** (Xnaberd)
**Qızılqoç** (Qukasyan)
**Qoşavəng** (Haykadzor)
**Qovluqat** (ləğv edilib)
**Qulucan** (Spandaryan)
**Qurudərə** (ləğv edilib)

**Qutluqışlaq** (ləğv edilib)
**Mahmudcuq** (Pemzaşen)
**Məscidli** (Nor Kyank)
**Molla Göyçə** (Maralik)
**Ortakilsə** (Maisyan)
**Palıdlı** (Arpeni)
**Sarıbaş** (ləğv edilib)
**Sarıyar** (ləğv edilib)
**Söyüdlü** (Sarnaxpyur)
**Sunqurlu** (Hayrenyats)

**Sübhanverdi** (Luysaxpyur)
**Şirvancıq** (Lernakert)
**Şiştəpə** (Sepasar)
**Talıboğlu** (Musakert)
**Təknəli** (Qoqohovit)
**Təpədölək** (Arevik)
**Toparlı** (Haçik)
**Yuxarı Qanlıca** (Marmaşen)

## Pəmbək sahəsindəki yaşayış məntəqələri:

**Ağbulaq** (Luysaxpyur)

**Böyük Qarakilsə** (Vanadzor)

**Cəlaloğlu** (Stepanavan)

**Darbaz**

**Əkərək** (ləğv edilib)

**Gərgər** (Qarqar)

**Güllücə** (Sarahart)

**Güləkərək**

**Hacıqara** (Lernapat)

**Hamamlı** (Spitak)

**Haydarlı**

**Həmzəçimən** (Marqahovit)

**Xancığaz** (Aznvadzor)

**Kiçik Qarakilsə** (ləğv edilib)

**Lecan** (ləğv edilib)

**Qaçağan** (Lertnavan)

**Qaltaxçı** (Hartaqyuğ)

**Qaraboya** (Xnkoyan)

**Qaraməmməd** (Maksim Qorki)

**Qışlaq** (ləğv edilib)

**Qızılörən** (Şenavan)

**Qoqaran**

**Qursalı** (Arcahovit)

**Nalbənd** (Şirakamut)

**Oparçı** (ləğv edilib)

**Pəmbək** (ləğv edilib)

**Saral** (Nor Xaçakap)

**Sarımsaxlı** (Karaberd)

**Şahalı** (Vahaqni)

**Soyuqbulaq** (Paqaxbyur)

**Şahnəzər** (Medzavan)

**Şiştəpə** (ləğv edilib)

**Tapanlı** (Geğasar)

**Urut**

**Vartanlı** (Şaumyan)

**Yaqublu**

**Heydarbəy** (Sverdlov)

## Qars paşalığının Zərşad sancağından Ermənistana daxil edilən kəndlər:

**Hamasa** (Amasiya)
**Oxçoğlu** (Voxçi)
**Qaraçalı** (Qaraçanta, Əzizbəyov, Areqnadem)
**Molla Musa** (Voskehask)
**Ucaqulu** (Ocaqqulu, Arapi)

## İrəvan qəzası Sərdarabad sahəsindəki yaşayış məntəqələri:



**Ağakiçik** (Zovasar)
**Ağcaarx** (Arevik)
**Ağcaqala** (Tsaxkalanc)
**Ağcaqala Sufla** (Nerkin Bazmaberd)
**Ağcaqala Uliya** (Verin Bazmaberd)
**Aralıx** (ləğv edilib)
**Aralıx Kolanı**
**Verin Kolanı** (Qriboyedov)
**Armudlu** (Tanzut)
**Aşağı Aylanlı** (Lenuği)
**Avan**
**Ayarlı** (ləğv edilib)
**Babakişi** (Bujakan)
**Baxcacıq** (ləğv edilib)
**Baş Abaran** (Aparan)
**Bazarcıq** (Arayi)
**Bulxeyir** (Şenavan)
**Canfida**
**Cəfərabad** (Getaşen)
**Çamırlı** (ləğv edilib)
**Çıraxlı** (ləğv edilib)
**Çubuxçu** (Vardanaşen)
**Damagirməz** (ləğv edilib)
**Daşqala** (ləğv edilib)
**Dədəqışlaq** (Pyunik)
**Dədəli** (Yeğnik)
**Dığır** (ləğv edilib)
**Düyərli** (ləğv edilib)
**Eşnək** (Aşnak)
**Evcilər** (Arazap)
**Eylax** (ləğv edilib)
**Əbdurrəhman** (ləğv edilib)
**Əkərək** (Aqarakavan)
**Əlibəyli** (Atarbekyan)
**Əliqoçaq** (Kuçak)
**Əngirsək** (ləğv edilib)
**Əştərək** (Aştarak)
**Əvəzəli** (ləğv edilib)
**Əyrisifət** (ləğv edilib)
**Gödəkli** (Mrqavan)

**Gözlü** (Akunk)
**Güllücə** (ləğv edilib)
**Hacı Bağır** (ləğv edilib)
**Hacı Bayram** (Baqaran)
**Hacı Qara** (Ayqeşat)
**Hacılar** (Mrqastan)
**Hacıyarlı** (ləğv edilib)
**Haxıs** (Dzorap)
**Hamamlı** (ləğv edilib)
**Hasar** (ləğv edilib)
**Hüseynkənd** (ləğv edilib)
**Xanavəng** (ləğv edilib)
**Xaraba Əkərək** (ləğv edilib)
**Xatunarx** (Qay)
**Xeyribəyli** (Yervandaşat)
**Xznaüz** (Araqats)
**İlançalan** (Ardaşavan)
**İmirli** (Ttucur)
**İydəli** (Pştavan)
**Karvansaray** (Amretaza, Saduns)
**Kələkarx** (Şenavan)
**Kiçikkənd Muğni** (ləğv edilib)
**Kirəşli** (ləğv edilib)
**Körpəli** (Arşalyus)
**Kürəkənli** (ləğv edilib)
**Kürpi** (ləğv edilib)
**Qalaça** (ləğv edilib)
**Qanık** (ləğv edilib)
**Qarabulaq** (Yerincatap)
**Qaracalar** (ləğv edilib)
**Qarakilsə** (Hartavan)
**Qaranlıq** (Lusagyuğ)
**Qarğabazar** (ləğv edilib)
**Qarğaqovmaz** (ləğv edilib)
**Qarxun** (ləğv edilib)
**Qazanerax** (ləğv edilib)
**Qəzənfər** (Araqats)
**Qəmərli** (ləğv edilib)
**Qırmızı** (Karmraşen)
**Qızıldəmir** (Voskevaz)
**Qorçulu** (Mqraşad)
**Qoş**
**Qoşabulaq** (ləğv edilib)
**Qoytul** (ləğv edilib)
**Quldərviş** (ləğv edilib)
**Qurduqulu** (Armavir)
**Quşçu** (ləğv edilib)
**Quzugüdən** (ləğv edilib)
**Mastara** (Dalarik)
**Mehriban** (Katnaxpyur)
**Məlikkənd** (Melikgyuğ)
**Məzarcıq** (Şenik)
**Mirzəxan** (ləğv edilib)
**Misxana** (Hankavan)
**Molla Bəyazid** (Bambakaşat)
**Molla Dursun** (Şaumyan)
**Molla Qasım** (Zovuni)
**Muğancıq** (Hovtameç)
**Mülkü** (Kayk)
**Nəzrəvan** (Kazaravan)
**Palçıxlı** (ləğv edilib)
**Pirəgah** (ləğv edilib)
**Rəncbər**
**Saçlı** (Noraşen)
**Səədli** (ləğv edilib)
**Səmadərviş** (Çknax)
**Səmagər**
**Sərdarabad**
**Şamikram** (ləğv edilib)
**Şəhriyar** (ləğv edilib)
**Şərifabad** (ləğv edilib)

**Şəvərid** (ləğv edilib)
**Şıxhacı** (ləğv edilib)
**Şirəkqala** (Vardenut)
**Talın** (Talin)
**Talış** (Aruç)
**Tatar Zeyvə** (Taronik)
**Tacirli** (ləğv edilib)
**Təkərli** (Tsaxkaşen)
**Təkiyə** (Bazmaxpyur)
**Təpədibi** (Haykavan)
**Təpəbaşı** (ləğv edilib)
**Türkmənli** (Abaqa )
**Ucan**
**Uzunoba** (Arqavand)
**Üşəyən** (Oşakan, Üşü)
**Yaşıl** (Kakavadzor)

## Zəngibasar sahəsindəki yaşayış məntəqələri:



**İrəvan şəhəri** (Erivan, Yerevan)
**Avdallar** (ləğv edilib)
**Ağcaqışlaq** (Qetazat)
**Ağcaqışlaq** (Getapiya)
**Ağhəmzəli** (Marmaraşen)
**Aşağı Bozavand** (Berdik)
**Aşağı Necili** (Sayat Nova )
**Aşağı Şinqovit** (Şenqovit)
**Ayaslı** (Ayqestan)
**Baş Gərni** (Qarni)
**Başnalı** (Bağramyan)
**Bayburd**
**Beycezli** (Vostan)
**Böyük Bozavand** (ləğv edilib)
**Böyük Gilənar** (ləğv edilib)
**Buğalı** (ləğv edilib)
**Cəbəcəli** (Crahovit)
**Cəfərabad** (Arqavand)
**Cənnətli** (Lancazat)
**Çarbax**
**Çiydəmli** (Azatavan)
**Çiləxanlı** (ləğv edilib)
**Darğalı** (Ayqezard)
**Dəlilər** (Dalar)
**Dəmiçi** (Darpnik)
**Doqquz** (Kanaçut)
**Donuzyeyən** (Zorak)
**Dvin Kürdkənd** (ləğv edilib)
**Yellicə** (ləğv edilib)
**Əliqırıx** (Blaraşen)
**Əlimərdan** (ləğv edilib)
**Gödəkli** (ləğv edilib)
**Göl** (ləğv edilib)
**Göykümbət** (Geğanist)
**Hacı Eylas** (Masis sovxozu)
**Haçaparaq** (Xaçpar)
**Xarratlı** (Arevabyur)
X**eyirbəyli** (Yervandaşat)
**İmanşalı** (Mxçyan)
**Kərpicli** (Geğadir)
**Kiçik Gilənar** (ləğv edilib)
**Kotanlı** (ləğv edilib)

**Körpüqulağı** (ləğv edilib)
**Qaladibi** (ləğv edilib)
**Qalaley** (ləğv edilib)
**Qaradağlı** (ləğv edilib)
**Qarahamzalı** (Burastan)
**Qaraqışlaq** (Hayanist)
**Qəmərli** (Artaşat)
**Qırx Buzavand** (ləğv edilib)
**Qurbanqulu** (ləğv edilib)
**Mehrab** (ləğv edilib)
**Mehrablı** (Vardaşen)
**Mərzik** (ləğv edilib)
**Məsimli** (Aygepat)
**Mollaəhməd** (ləğv edilib)
**Novruzlu** (ləğv edilib)
**Reyhanlı** (ləğv edilib)
**Rəhimabad** (ləğv edilib)
**Sabunçu** (Araksavan)
**Saraşlı** (ləğv edilib)
**Sarcalar** (ləğv edilib)
**Sarvanlar** (Sis)
**Seyidabad** (ləğv edilib)
**Şöllü** (Hovtaşad)
**Tamamlı** (ləğv edilib)
**Tərəkəmələr** (ləğv edilib)
**Təzəkənd** (Ayntap)
**Toxanşalı** (Masis)
**Uluxanlı** (Masis)
**Uğurbəyli** (ləğv edilib)
**Verməzyar** (Arevaşat)
**Yuxarı Ağbaş** (Abovyan)
**Yuxarı Göyləsər** (ləğv edilib)
**Yuxarı Necili** (Nizami)
**Yuva** (Şaumyan)
**Zöhrablı** (Mrqanuş)

## Şərur sahəsinin Vedibasar nahiyəsini əhatə edən yaşayış məntəqələri:

**Ağkilsə** (ləğv edilib)
**Alməmməd** (ləğv edilib)
**Avşar**
**Bağcacaıq** (ləğv edilib)
**Böyük Vedi** (Vedi)
**Cadqıran** (ləğv edilib)
**Camışbasan** (ləğv edilib)
**Cəngli** (ləğv edilib)
**Cığın** (ləğv edilib)
**Çanaxçı** (Sovetaşen)
**Çırmanıs** (ləğv edilib)
**Daşnov** (ləğv edilib)
**Dəvəli** (Ararat)
**Əliməmməd Qışlağı** (ləğv edilib)
**Ərmik** (ləğv edilib)
**Goravan** (Qorovan)
**Gül** (ləğv edilib)
**Haxıs** (ləğv edilib)
**Heyranıs** (ləğv edilib)
**Hünüt** (ləğv edilib)
**Xalisa** (Noyakert)
**Xosrov** (ləğv edilib)
**Keşişviran** (Zovaşen, Urçalanc)
**Kiçik Vedi** (Pokr Vedi)
**Qarabağlar** (ləğv edilib)
**Qaraxaç** (Lusaşoğ)
**Qaralar** (Aralez)
**Qaravəli** (ləğv edilib)
**Qaşqa** (Vardaşat)
**Qədili** (Lancanist)
**Məngük** (ləğv edilib)
**Pirəli** (ləğv edilib)
**Şahablı** (Şağap)
**Şıxlar** (Lusarat)
**Şidli** (Yeğeqnavan)
**Şirazlı** (Vosgeat)
**Yengicə** (Sisavan)
**Yuxarı Arazdəyən** (Yerasx)
**Zincirli** (ləğv edilib)
**Ziqama** (ləğv edilib)

## Göyçə sahəsindəki yaşayış məntəqələri:

**Abdulağalı** (Vağaşen)
**Ağazor** (ləğv edilib)
**Ağbulaq** (Ağperek)
**Ağkilsə** (Azat)
**Ağqala** (Berdkunk)
**Ağqrax** (ləğv edilib)
**Ağpara** (ləğv edilib)
**Ağyoxuş** (Zarivar)
**Ağzıbir** (Lçap)
**Alçalı** (ləğv edilib)
**Allahverdi** (ləğv edilib)
**Ardanış**
**Aşağı Adıyaman** (Nerkin Getaşen)
**Aşağı Qaranlıq** (Martuni)
**Adamxan** (Vardadzor)
**Avan** (ləğv edilib)
**Babakişi** (Ağavnadzor)
**Basarkeçər** (Vardenis)
**Başkənd** (Geğarkunik)
**Böyük Axta** (ləğv edilib)
**Böyük Məzrə** (Medz Masrik)
**Canıqıran** (ləğv olub)
**Cantəpə** (ləğv edilib)

**Çaxırlı** (Xaçaxbyur)
**Çazar** (ləğv edilib)
**Çırçır** (ləğv edilib)
**Çilamimli** (ləğv edilib)
**Çubuxlu** (Tsovagyuğ)
**Damagirməz** (ləğv edilib)
**Daşkənd** (Hayrik)
**Daşqanlı** (ləğv edilib)
**Dəli tat** (ləğv olub)
**Dəliqardaş** (Saruxan)
**Dəlləkli** (Zovaşen)
**Ellər** (Abovyan)
**Əfəndikənd** (Noraşen)
**Ərinc**
**Ərzəkənd** (Kiçikkənd)
**Solak**
**Əyrivəng**
**Fərrux**
**Gəmris**
**Göykilsə** (Kaputan)
**Gülkənd**
**Güllücə**
**Hacı Muluxan** (ləğv edilib)

**İnəkdağ** (Tretuk)
**Kaxsı**
**Kamal** (ləğv edilib)
**Karvansaray** (ləğv edilib)
**Kaşıkənd** (ləğv edilib)
**Kənkan**
**Kərkibaş** (Vanevan)
**Kəsəmən** (Artunk)
**Kiçik Məzrə** (Pokr Masrik)
**Kiçik Axta**
**Kitran**
**Kolanıqırılan** (ləğv edilib)
**Küzəcik** (ləğv edilib)
**Qanlı Allahverdi**
**Qaraqala**
**Qaraqala**
**Qaraqoyn** (Qaraqoyunlu)
**Qırxbulaq**
**Qışlaq**
**Qızılvəng** (Makenis)
**Qoşabulaq** (Şadcrek)
**Mədinə**
**Möhüb** (Mequp)
**Oğruca** (ləğv edilib)



**Orta Qaranlıq**
**Ozanlar** (Kiçikkənd)
**Ördəkli** (Lcaşen)
**Paşakənd**
**Rəndamal**
**Samaqakəndi**
**Sarıyaqub** (Cağatsadzor)
**Sinqulax** (ləğv edilib)
**Sultanəli Qışlağı**
**Şişqaya** (Geğamasar)
**Şorcalı** (Şorca.)
**Tayçarıq**
**Tezxarab**
**Təkəli**
**Təzəkənd** (iəğv olub)
**Toxluca** (Draxtik)
**Üləşik** (ləğv edilib)
**Yarpızlı** (Lçavan)
**Yaycı**
**Yelqovan** (Kotayk)
**Yuxarı Adıyaman**
**Yuxarı Alçalı**
**Yuxarı Qaranlıq**

## Yelizavetpol qəzasının Qazax sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri:

**Ağdağan** (ləğv edilib)
**Ağdan** (eyni adlı 2 kənd vardı)
**Axarzaman** (ləğv edilib)
**Bozikənd** (ləğv edilib)
**Çarusan**
**Çirxit**
**Dilican**
**Haçasu** (Açacur)
**Haştarak**
**Xutor**
**Karvansaray** (İcevan)
**Qaradaş** (Sevkar)
**Qaranlıq dərə** (Lusadzor)
**Qışlaq**
**Revazlı** (Ditavan)
**Lələkənd** (Laliqyuğ)
**Talakənd** (Ketahovit)
**Uzuntala** (Aygehovit)
**Voskresenkoe** (ləğv edilib)



## Yelizavetpol qəzasının Şəmşəddil sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri:

**Haxum** *(Çinçin)*
**Qırğı** *(Artsvaberd)*
**Quləli** (Ayqedzor)
**Tovuzkənd** *(Tavuş)*
**Tovuzqala** *(Berd)*
**Vəlikənd** *(Tsaxkavan)*

## Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki yaşayış məntəqələri:

**Ağdərə** (ləğv edilib)
**Ağkənd** (Ağncadzor)
**Ağxaç** (ləğv edilib)
**Axıl** (ləğv edilib)
**Alagöz** (ləğv edilib)
**Ardaraz** (ləğv edilib)
**Arinc** (ləğv edilib)
**Arpa** (Areni)
**Aşağı Axta** (ləğv edilib)
**Aşağı Canı** (ləğv edilib)
**Aşağı Başkənd**
**Aşağı Ginişik**
**Aşağı İtqıra**n (ləğv edilib)
**Aynazur** (Axavnadzor)
**Azadeğ**
**Başkənd** (Vernaşen)
**Batı** (ləğv olub)
**Buzqov**
**Bülbülolan**
**Canıkənd** (ləğv edilib)
**Ciqartay**
**Cul** (Hartavan)
**Çaykənd** (Gedik)
**Çıraxlı** (ləğv edilib)
**Çivə**
**Erdəpin** (Yexegis)
**Erdiç** (ləğv edilib)
**Əliqışlağı** (ləğv edilib)
**Əliqışlağı** (ləğv edilib)
**Əmağu**
**Ərgəz** (ləğv edilib)
**Əyər** (Aqarakadzor)
**Gabud** (Kapuyt)
**Gindivaz**
**Gümüşxana** (ləğv edilib)
**Her-her**
**Heşin** (ləğv edilib)
**Həsənkənd** (Şatin)
**Horbadex** (ləğv edilib)
**İtqıran** (ləğv edilib)

**Keşişkənd (**Yeğeqnadzor)
**Kərməçatax** (ləğv edilib)
**Kiş Keşbəy**
**Kürəş**
**Qabaxlı** (Qoxtank)
**Qaral, Qaralar** (ləğv edilib)
**Qaravəng** (ləğv edilib)
**Qılıclar** (ləğv edilib)
**Qışlaq Şorcalar** (ləğv edilib)
**Qızılkilsə** (ləğv edilib)
**Qovuşuq** (Yermon)
**Qoytul** (Getap)
**Qozluca** (ləğv edilib)
**Qurbankəsilən** (ləğv edilib)
**Qurdqulaq** (Boloraberd)
**Moz** (ləğv edilib)
**Maratuz** (ləğv edilib)
**Ortakənd** (Qladzor)
**Paşalı** (Zaritap)
**Rəsul qışlağı** (ləğv edilib)
**Sallı** (ləğv edilib)
**Soylanlı** (Vayk)
**Sultanbəy** (Bartsruni)
**Tarp** (ləğv edilib)
**Terp** (Saravan)
**Vaxsey**
**Vəng** (ləğv edilib)
**Yelpin** (ləğv edilib)
**Yengicə** (Qandzak)
**Yuxarı Axta** (ləğv edilib)
**Yuxarı Canı** (ləğv olub)
**Yuxarı Ginişik** (ləğv edilib)
**Yuxarı Başkənd** (Aşağı Başkəndlə birləşdirilb Başkənd adlandırılıb)
**Zeyta** (Zeda)

## Kaspi vilayətinin Zəngəzur sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri:

**Ağkənd** (Aşotavan)
**Ağudi** (Aqitu)
**Əngələvit** (ləğv edilib)
**Artıgöz** (ləğv edilib)
**Bayandur** (Vağadur)
**Bazarkənd** (Qorayk)
**Daşkənd** (ləğv edilib)
**Dauvtlu** (ləğv edilib)
**Dəstəgird** (Dastakert)
**Dığ** (Tex)
**Dudaqçı** (ləğv edilib)
**Əxlətyan** (ləğv edilib)
**Əliqulu** (ləğv edilib)
**Əlişar** (ləğv edilib)
**Ərəfsə** (Arevus)
**Gorus**
**Xanazax**
**Xinzirək** (ləğv edilib)
**İşkəmli** (ləğv edilib)
**Karvansaray** (ləğv olub)
**Qalacıq** (Spandaryan)
**Qarahunc** (ləğv edilib)
**Qarakilsə** (Sisyan)
**Qızılcıq** (İşxanasar)
**Məzrə** (Bartsravan)
**Muğancuq** (Ayqedzor)
**Pirnaut** (Brnakot)
**Püsək** (ləğv edilib)
**Sisyan** (Hatsavan)
**Şalat** (Şağat)
**Şəki**
**Şıxlar** (Torunik)
**Tulus** (ləğv edilib)
**Urud** (Vorotan),
**Uz** (Uyts)
**Vağu**di (Vağadin)
**Yaycı** (Qarjis)
**Zabazadur** (ləğv edilib)

## Naxçıvan qəzasının Meğri sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri:

**Aşağı Xələc** (ləğv edilib)
**Abdalanlı** (ləğv edilib)
**Adoçazur** (ləğv edilib)
**Axtaxana** (Xlatağ Dzorastan)
**Aqnataz** (ləğv edilib)
**Aldərə** (Alvank)
**Astazur** (Şvanidzor)
**Atqız** (ləğv edilib)
**Bağaburc** (ləğv edilib)
**Bağırbəyli** (ləğv edilib)
**Baharlı** (ləğv edilib)
**Barabatum** (ləğv edilib)
**Bəxtiyar** (ləğv edilib)
**Bıx** (ləğv edilib)
**Böyük Meğri**
**Çəpni**
**Çobanlı** (ləğv edilib)
**Dazin** (ləğv edilib)
**Dərəbas** (Darbas)
**Dəymədağlı** (Şrvenants)
**Dortnu** (Antaraşat)
**Dovruz** (Davrus)
**Ecanan** (ləğv edilib)
**Əkərək** (Aqarak)
**Gığılı** (Qexi)
**Gölcük** (ləğv edilib)
**Güdgüm** (Geğanuş)
**Gün** (ləğv edilib)
**Hunan Xələc** (Acavan)
**İmarat** (ləğv edilib)
**Kamal** (ləğv edilib)
**Karxana** (ləğv edilib)
**Kertcananlı** (ləğv edilib)
**Ketadağ** (ləğv edilib)
**Kiçik Meğri** (Böyük Meğri ilə birləşdirilib Meğri adlandırılıb)
**Kiləcan** (ləğv edilib)
**Kitaz** (ləğv edilib)
**Kökyalı** (ləğv edilib)
**Kurud** (Karud)

**Kürsüzən** (ləğv edilib)
**Qandalı** (ləğv edilib)
**Qaraçimən** (Ditsmayri)
**Qaradaş** (ləğv edilib)
**Qaradığa** (ləğv edilib)
**Qatar** (ləğv edilib)
**Qışlaq** (ləğv edilib)
**Lehvaz** (Leyvaz)
**Mahmudlu** (Gedişen)
**Mavlanan** (ləğv edilib)
**Mülkü** (ləğv edilib)
**Mülküçap** (ləğv edilib)
**Nüvədi** (Nradzor)
**Oxçu** (ləğv edilib)
**Oxdar**
**Parxut** (ləğv edilib)
**Pirdovudan** (ləğv edilib)
**Sar** (ləğv edilib)
**Səncərli** (ləğv edilib)
**Sofulu** (Nijdeh)
**Şadar** (ləğv edilib)
**Şahverdi** (ləğv edilib)
**Şəhərcik** (ləğv olub)
**Şıxovuz** (Şikaxox)
**Şinadağ** (Lernaşen)
**Tacədin** (ləğv edilib)
**Dəmir** (ləğv edilib)
**Təkyaxtar** (ləğv edilib)
**Tuğut** (ləğv edilib)
**Tunus** (ləğv edilib)
**Vaçakənd** (ləğv edilib)
**Vahrivar** (ləğv edilib)
**Vəng** (ləğv edilib)
**Yuxarı Girərağ** (Verin Qirataq)
**Zeyvə** (David Bek)
**Zor** (ləğv edilib).

## 1847-ci il xəritəsində adları keçən oronimlər, hidronimlər və tarixi tikililər

### DAĞLAR

**Ağlağan**
**Ağqaya**
**Ağmanqan**
**Alagöz**
**Alaşan**
**Allahəkbər**
**Altuntaxt**
**Arazyurd**
**Arxaşan**
**Arcut**
**Ayıçınqılı**
**Boğutlu**
**Börklü**
**Buğatenez**
**Canqurtaran**
**Çoban**
**Çubuxlu**
**Dəmirri**
**Dəlidağ**
**Dəvəgözü**
**Didəkənd**
**Əliyar, Xalabmazan**
**Xanbulaq**
**İlli**
**İşıqlı**
**Kazar**
**Keyti**
**Kəbirli**
**Kükü**
**Gözəldərə**
**Qabaxtəpə**
**Qanlıgöl**
**Qaraçoban**
**Qaraxaç** (Qaraarxac)
**Qaran**
**Qaraköynək**
**Qaraultəpə**
**Qazançı**
**Qazandağ**
**Qazanuçan**
**Qızılburun**
**Qoçqara**
**Qolqat**
**Qoşatəpə**
**Quzu**
**Lecan**
**Leyli**
**Marallıca**
**Maymaq**
**Misxanlı**
**Murğuz**
**Palıdlı**
**Salvartı**
**Sarıyarsarçalı**
**Soyqbulaq**
**Səskeçməz**
**Şahbulaq**
**Şahdağ**
**Şiştəpə**
**Şıxyurd**
**Üçtəpələr**
**Yanıq**
**Yırğançağ** dağ silsiləsi
**Zamanlı**
**Zincirli**
**Zuvanburun**

## ÇAYLAR

| | | | | |
|---|---|---|---|---|
| Abaran | Arpaçay | Həmzəçimən | Qaradizəçay | Yuxarı Qaranlıq |
| Adıyaman | Bazarçay | Xancığaz | Məzrə | Zamanlı |
| Alagöllər | Bərguşat | Xarpudərə | Şahbulaq | Zəngi |
| Araz | Dilicançay | Xampurt | Şiqviyet | Zəmiçay |
| Arpa | Gərniçay | Kasax | Vediçay | |

## GÖLLƏR



| | | | |
|---|---|---|---|
| Alagöl | Qaratəpə | Şingirgöl | Daşlıgöl |
| Göyçə | Qaragöl | | |

## QALALALAR

| | | | |
|---|---|---|---|
| İrəvan qalası | Başkənd qalası | Koroğlu qalası | Talın qalası |
| Aleksandropol (Gümrü) qalası | Sərdarabad qalası | Loru qalası | |
| | | Qaraqala | |

## KURQANLAR

| | | | |
|---|---|---|---|
| Ağtəpə | Xaçtəpə | Qaratəpə | Qızıllar |
| Gədiktəpə | Qaraburun | Qırmızıtəpə | Tülkütəpə |

## İstifadə edilmiş ədəbiyyat:


1. Əziz Ələkbərli. Soyqırımına məruz qalmış toponimlərimiz. Bakı: Elm və təhsil, 2020.
2. Arzumanlı Vaqif, Mustafa Nazim. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998.
3. Bayramov İbrahim, Mustafa Nazim. Həqiqətin onomastikası: indiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması. Bakı: Şərq-Qərb, 2021.
4. Bayramov İbrahim. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: Elm, 2002.
5. Bayramov İbrahim. Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı: Çıraq, 2012.
6. Bournoutian G.A. The khanate of Erevan under Qajar rule 1795-1828. Mazda Publishers in association with Bibliotheca Persica. Costa Mesa, California and New York, 1992.
7. Vandalizm: tarixi adlara qarşı soyqırımı. Tərtib edəni Nazim Mustafa. Bakı: Turxan NPB, 2014.
8. Армянская ССР. Административно-территориальное деление на 1-ое августа 1988 года. Издание шестое. Ереван: Айастан, 1988.
9. Бурнашев С. Описание областей Адребижанских в Персии и их политического состояния. Курск, 1793.

10. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи, СПб, 1852.
11. Կորկոտյան Զ. Խորհրդային Հայաստանի բնակչությունը վերջին հարյուրամյակում (1831-1931), Երեւան, 1932. (Korkodyan Z. Sovet Ermənistanının əhalisi son yüz ildə. 1831-1931. (ermənicə). İrəvan, 1932).
12. Հայաստանի Հանրապետության Բնակավայրերի բառարան. (Ermənistan Respublikasının yaşayış məntəqələrinin lüğəti). İrəvan, 2008.
13. Հայաստան-Армения-Armenia. Иллюстративный альбом. Ереван: Тигран Мец, 2009.

## MÜNDƏRİCAT


1847-ci ilin topoqrafik xəritəsində Qərbi Azərbaycanda (indiki Ermənictanda) azərbaycanlıların yaşadıqları məntəqələr

Aleksandropol qəzası üzrə Şörəyel sahəsindəki yaşayış məntəqələri ........ 15

Pəmbək sahəsindəki yaşayış məntəqələri ........ 17

Qars paşalığının Zərşad sancağından Ermənistana daxil edilən kəndlər ........ 18

İrəvan qəzası Sərdarabad sahəsindəki yaşayış məntəqələri ........ 18

Zəngibasar sahəsindəki yaşayış məntəqələri ........ 20

Şərur sahəsinin Vedibasar nahiyəsini əhatə edən yaşayış məntəqələri ........ 22

Göyçə sahəsindəki yaşayış məntəqələri ........ 23

Yelizavetpol qəzasının Qazax sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri ........ 25

Yelizavetpol qəzasının Şəmşəddil sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri ........ 25

Yelizavetpol qəzasının Dərələyəz sahəsindəki yaşayış məntəqələri ........ 26

Kaspi vilayətinin Zəngəzur sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri ........ 28

Naxçıvan qəzasının Meğri sahəsindən Ermənistana qatılan yaşayış məntəqələri ........ 29

1847-ci il xəritəsində adları keçən oronimlər, hidronimlər və tarixi tikililər ........ 31

İstifadə edilmiş ədəbiyyat ........ 33